

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Qəzet 1921-ci ildən çıxır

Sayı: 257 (21.409)

30 dekabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Bakının Xətai rayonundakı Ramiz Quliyev, Rahib Məmmədov, Xudu Məmmədov, Aşıq Ələsgər küçələrinin və Gəncə prospektinin yenidən qurulması və əsaslı təmir işlərindən sonrakı vəziyyəti ilə tanış olub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov buradakı küçələrin və Gəncə prospektinin əsaslı təmiri və yenidənqurma planı əsasında görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edildi ki, Xətai rayonundakı 5,5 kilometr uzunluğu olan yolda əsaslı təmir və yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə aparılıb, ümumilikdə 131 min kvadratmetrdən çox əraziyə asfalt örtüyü döşənib. Yolların kənarında abadlıq işləri görülüb, 18 min metrdən çox qranit səki daşları və yol boyu kommunikasiya lüklərinin qapaqları dəyişdirilib. İki min kvadratmetrə yaxın səki yenidən qurulub, yeni asfalt örtüyü salınıb. Yol zolaqlarına 2 min 743 kvadratmetr tamet tavalar döşənib. Əsaslı təmir olunmuş və yenidən qurulmuş yollar müasir standartlara uyğun işıqlandırma sistemi ilə təchiz edilib, 193 yeni işıq dirəyi quraşdırılıb. Bütün kommunikasiya xətləri yerin altı ilə çəkilib, ətraf ərazilərdə yaşıllıq zolaqları salınıb.



## Naxçıvan Muxtar Respublikası Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyası 2015-ci ilin yekunlarını və qarşıda duran vəzifələri müzakirə etmişdir

*Dekabrın 29-da Naxçıvan Şəhər İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı iclası keçirilmişdir.*

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, komissiyanın sədri Mirhəşim Seyidov Naxçıvan Muxtar Respublikası Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının 2015-ci ildə gördüyü işlər haqqında məruzə edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlərin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlar yüksək səviyyədə qeyd edilir. Muxtar respublikanın məscidlərində İslam dininin əsaslarına uyğun olaraq ibadətlər təşkil edilir, tolerantlıq prinsipləri ciddi şəkildə qorunur. İslami dəyərlərdən irəli gələn ənənələr yaşadılır, azsaylı xalqların nümayəndələrinin də mədəni irsinin qorunmasına və dini azadlığına hörmətlə yanaşılır.

Qeyd edilmişdir ki, muxtar respublika ərazisində müxtəlif məzhəblərə mənsub insanların məscidlərdə birgə ibadət etmələri təmin olunur. İslam dini üzrə gənc, peşəkar dini və dünyəvi biliklərə malik ixtisaslı kadrların hazırlanması diqqət mərkəzində saxlanılır. 2015-2016-cı tədris ilində "Naxçıvan" Universitetində Dinşünaslıq ixtisasının açılması bu sahəyə göstərilən dövlət qayğısını və muxtar respublikada dövlət-din münasibətlərinin yüksək səviyyədə qorunub saxlanılmasını ifadə edir.

"Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyası 2015-ci ildə fəaliyyətini dövlət-din münasibətlərinin tənzimlənməsi, radikal və dini nifrət yayan cərəyanlara qarşı müvafiq tədbirlərin həyata keçirilməsi, dini icmalar və cəmiyyətdə milli-mənəvi dəyərlərimizin təbliği ilə bağlı maarifləndirmə işlərinin təşkili istiqamətində qurmuşdur", – deyən Mirhəşim Seyidov diqqətə çatdırmışdır ki, komissiya tərəfindən dini icmaların iştirakı ilə sağlam dini mühitin formalaşdırılması, dindən bir vasitə kimi yararlanmağa çalışan xarici dairələrin ideoloji həmlələri qarşısında sayıqlığın artırılması istiqamətində silsilə xarakterli tədbirlər keçirilmişdir. Əvvəlki illər də daxil olmaqla bu günədək qeydiyyatdan keçmiş 680 din xadiminin hər birinə pulsuz olaraq komissiya tərəfindən iki dəstdən ibarət yay və qış geyim forması verilmiş, din xadimlərinin dini və yas mərasimlərində geyim formalarına əməl etmələri nəzarətdə saxlanılmışdır. 2015-ci ildə dini biliklərin artırılması məqsədilə şəhər və rayonlarda təkmilləşdirmə kursları təşkil olunmuşdur. Bu kurslarda Naxçıvan şəhəri üzrə 25, Culfa rayonu üzrə 29, Şərur rayonu üzrə 65 və Sədərək rayonu üzrə 18 olmaqla, ümumilikdə, 137 din xadimi iştirak etmişdir. Qadınlar üçün də kurslar təşkil edilmiş, bu kurslarda 150 qadın iştirak etmişdir.

2015-ci ildə xarici ölkələrdəki müqəddəs yerlərə ziyarətlərin təşkili diqqətdə saxlanılmış, zəvvar qruplarının təşkili müvafiq qanunvericiliyin tələblərinə uyğun şəkildə və Dini Qurumlarla İş üzrə İdarə ilə razılıq əsasında həyata keçirilmişdir.

Bildirilmişdir ki, muxtar respublika ərazisində mövcud olan məscidlərin, dini ibadətgahların qorunması, onların yerləşdiyi binaların və ətraflarının təmiz və səliqəli saxlanılmasına nəzarət artırılmış, bu məqsədlə müntəzəm yoxlamalar keçirilmişdir, ciddi nöqsanlara rast gəlinməmişdir. Muxtar respublika ərazisinə dini təyinatlı ədəbiyyatların gətirilməsi və satışı nəzarətdə saxlanılmış, məzhəb ayrı-seçkiliyi salan 716 ədəd dini təyinatlı ədəbiyyatın muxtar respublika ərazisində yayılmasının qarşısı alınmışdır. Muxtar respublika gənclərinin milli və mənəvi dəyərlərə hörmət ruhunda tərbiyə olunması ilə bağlı ümumtəhsil müəssisələrinin pedaqoji kollektivləri və yuxarı sinif şagirdləri ilə görüşlər keçirilmişdir.

Qeyd olunmuşdur ki, 2015-ci ildə əhalinin maariflənməsi məqsədilə Naxçıvan Dövlət Televiziyasında 32 veriliş hazırlanmışdır. Bununla yanaşı, 500 ədəd "İslam dininin əsasları" adlı vəsait hazırlanaraq din xadimlərinə paylanılmışdır. Multikulturalizm və dini məsələlərlə bağlı muxtar respublika komissiyasının üzvləri rayonlarda yaradılmış komissiyalarla birgə "Tolerantlıq nümunəsi Azərbaycan", "İslamda tolerantlıq", "Müasir Azərbaycanda multikulturalist dəyərlər" mövzusunda 14 maarifləndirici tədbir keçirmişdir. Bu tədbirlərdə gənclərin iştirakına üstünlük verilmiş, muxtar respublikada multikulturalizmin əhəmiyyəti və dini məsələlərlə bağlı çıxışlar dinlənilmişdir.

Komissiyanın sədri vurğulamışdır ki, muxtar respublikanın şəhər və rayonlarında yaradılmış müvafiq komissiyalar tərəfindən də multikulturalizm və dini məsələlər üzrə bir sıra tədbirlər keçirilmişdir.

Diqqətə çatdırılmışdır ki, 2016-cı ildə qarşıda mühüm vəzifələr durur. Muxtar respublika komissiyası artıq iş planını hazırlamışdır. Şəhər və rayon komissiyaları da qısa müddətdə öz iş planlarını hazırlamalı, iş planında nəzərdə tutulan tədbirlər vaxtlı-vaxtında icra edilməlidir. Muxtar respublika əhalisinin, xüsusən də gənclərin maariflənməsinə yönəlmiş tədbirlərə üstünlük verilməlidir. Komissiyalar 2016-cı ildə bu istiqamətdə fəallığını artırmalıdır.

Sonra məruzə ətrafında Naxçıvan Şəhər İcra Hakimiyyətinin Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının sədri Sərdar Salahovun, Şərur Rayon İcra Hakimiyyətinin Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının sədri İlham Bədəlovun, Şahbuz Rayon İcra Hakimiyyətinin Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının sədri Mətanət Məmmədovanın çıxışları olmuşdur. Çıxış edənlər görülən işlər barədə ətraflı məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının 2016-cı il üçün iş planı barədə iclas iştirakçılarına ətraflı məlumat vermişdir.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyasının sədri Mirhəşim Seyidov qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə iclas iştirakçılarını təbrik etmiş, onlara işlərində yeni-yeni uğurlar arzulamışdır.

**Rauf ƏLİYEV**



## Tikintidə keyfiyyət amilinə diqqət artırılmalıdır

*Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində 2015-ci ilin yekunları və 2016-cı ildə qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib. İclası Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov açmış, komitənin sədri Cəfər Muxtarov mövzu ilə əlaqədar məruzə etmişdir.*

Qeyd olunmuşdur ki, əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də muxtar respublikanın bütün bölgələrində genişmiqyaslı tikinti-quruculuq işləri aparılmış, bu işlər həyatımızın bütün sahələrini əhatə etmiş, yeni sosial obyektlər istifadəyə verilmiş, yollar müasir standartlar səviyyəsində yenilənmiş, körpülər salınmış, abadlıq tədbirləri həyata keçirilmişdir. Hazırda bəzi obyektlərdə quruculuq işləri davam etdirilir.

Bildirilmişdir ki, əldə edilən uğurlarla yanaşı, bir sıra nöqsan və çatışmazlıqlar da müşahidə olunmuşdur. Obyektlərin tikintisinə başlamaq üçün layihə sənədlərinin hazır olmaması halları hələ də müşahidə edilir. Keyfiyyətsiz iş, israfçılıq, məsuliyyətsizlik komitənin idarə və müəssisələrində özünü 2015-ci ildə də göstərmişdir. Obyektlərdə iş zamanı tələskənliyə yol verilir, keyfiyyətsiz işlər görülür. Yenidən görülən işlər isə əlavə xərc hesabına başa gəlir. Bu xərclər tikinti təşkilatının öz vəsaiti hesabına aparıldığına görə idarələrin rentabelliyinə də mənfi təsir göstərir.

Qeyd olunan çatışmazlıqların yaranmasında komitənin də səhvləri vardır. Komitənin texniki nəzarətçiləri obyektlərdə keyfiyyətsiz işlərə yol verilməməsi üçün diqqəti artırmalı, obyektlərdə nizam-intizamı, eləcə də nəzarəti gücləndirməlidirlər.

Məruzə ətrafında müzakirələrdə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad və Babək Rayon, Naxçıvan Şəhər idarələrinin rəisləri Əkrəm Salmanovun, Rəvayət İmanovun və Novruz Qalayevin çıxışları olmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov çıxış edərək demişdir ki, başa çatmaqda olan 2015-ci il muxtar respublikamızda sosial-iqtisadi sahədə qazanılan bir sıra uğurlarla yadda qalmışdır. Xalqımız bu il keçirilmiş seçkilərdə bir daha ümummilli lider Heydər Əliyev yoluna sədaqət göstərmişdir.

Ölkə başçısı tərəfindən bu siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, bütün sahələrin inkişafı təmin olunmuşdur. Doğma Naxçıvanımız da bu diqqət və qayğının nəticəsində bu gün, sözün həqiqi mənasında, öz intibah dövrünü yaşayır.

Bildirilmişdir ki, bu ayın əvvəlində ölkə Prezidenti cənab İlham Əliyev muxtar respublikamızda səfərdə olmuş, bir sıra obyektlərin açılışını etmişdir.

Bütün bunlar bizdən qarşıya qoyulmuş vəzifələri daha məsuliyyətlə yerinə yetirməyi, maliyyə vəsaitlərindən daha səmərəli istifadə etməyi, keyfiyyətli və müasir tələblərə cavab verən abadlıq-quruculuq işləri görməyi tələb edir.

Naxçıvan Muxtar Respublikası davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətlər fonunda yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. Bu baxımdan sosial-iqtisadi sahələrdəki davamlı tərəqqi yüksək nəticələr əldə etməyə imkan vermiş, tikinti-quruculuq işlərinin həcmi 2015-ci ildə 145 milyon 149 min 500 manat təşkil etmişdir.

Kollegiya iclasında tikinti təşkilatlarına texnikaların təmirini başa çatdırmaq, maliyyə-təsərrüfat fəaliyyətini qaydaya salmaq, tikinti işlərinin keyfiyyətini artırmaq, 2016-cı ildə tikilməsi nəzərdə tutulmuş obyektlərin layihələrinin vaxtında hazırlanması barədə tapşırıqlar verilmişdir.

**Muxtar MƏMMƏDOV**



# 2015-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Dekabrın 29-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilmiş, iclasda 2015-ci ildə muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.*

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlardan söhbət açmış, 2015-ci ildə muxtar respublika məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Bildirilmişdir ki, əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, eləcə də onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmış, məhkəmələrin fəaliyyətində yeni informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiq edilməsi ilə bağlı bir sıra işlər görülmüşdür.

Ali Məhkəmənin sədri qeyd etmişdir ki, 2015-ci il ərzində Ali Məhkəməyə daxil olan ərizə və şikayətlərin vaxtında öyrənilərək nəticələri barədə vətəndaşlara qanunla müəyyən olunmuş qaydada cavablar verilməsinə, müraciət etmiş vətəndaşların şikayətlərinin araşdırılıb həll edilməsinə xüsusi diqqət yetirilmişdir.

Ramiz Süleymanov çıxışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan 15 iyul 2011-ci il tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Fərmandan irəli gələn vəzifələrin icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində görülən işlərlə bağlı məlumat vermiş, məhkəmənin Azərbaycan və ingilis dillərində yayımlanan rəsmi internet saytının mütəmadi olaraq məhkəmə fəaliyyətinə dair xəbər materialları, məhkəmə qərarları, baxılmaq üçün təyin edilmiş və baxılıb nəticə verilmiş işlər barədə məlumatlarla, habelə Ali Məhkəmənin nəşri olan bülletenin növbəti sayları ilə yeniləndiyini, məhkəmənin elektron kitabxana bazasının qanunvericilik aktları və yeni hüquq ədəbiyyatı ilə zənginləşdirildiyini qeyd etmiş, həyata keçirilən tədbirlərin insan hüquq və azadlıqlarının təmin olunmasına, hüquqi maarifləndirmə işinin daha da gücləndirilməsinə yönəldiyini bildirmişdir.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2015-ci ildə gördükləri işlərə dair məlumatları dinlənilmişdir.

* * *



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində də 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.*

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, 2015-ci ildə nazirliyin əsas fəaliyyət istiqamətlərindən olan hüquqi maarifləndirmə və hüquqi təbliğat işi diqqət mərkəzində saxlanılıb, muxtar respublikanın şəhər və rayonlarında bələdiyyə fəaliyyəti ilə bağlı 19, notariat və qeydiyyat fəaliyyəti ilə bağlı 8, icra xidməti ilə bağlı 2 tədbir keçirilib. Qeyd olunub ki, "Hüquqi aktların Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq, reyestrə hesabat dövrü 139 hüquqi akt daxil edilib ki, bunlardan 69-u normativ-hüquqi akt, 69-u qeyri-normativ-hüquqi akt, 1-i isə normativ xarakterli aktdır. Bundan əlavə, məhkəmə qərarlarının icrasının vaxtında təmin edilməsi məqsədilə nazirliyin əməkdaşları icra xidmətinin bölmə və qruplarının işinin təşkilinə köməklik göstərib, icrası çətinlik törədən işlərin icrasında yaxından iştirak ediblər. 2015-ci ildə icra xidmətinin bölmə və qruplarının icraatına 3427 icra işi daxil olub, bunlardan 739 işin icrası başa çatdırılıb, 2442 iş icraya yönəlib, 66 iş geri qaytarılıb, 127 iş ərazi aidiyyəti üzrə göndərilib, 13 işin icraatı dayandırılıb, 40 iş üzrə isə axtarış qərarı verilib. İcraata daxil olan işlərin sayında ötən ilə nisbətən 903 iş çoxalma olub.

Ekspertlərin nəzəri və peşəkarlıq səviyyəsinin artırılmasından danışan Suliddin Əliyev bildirib ki, hesabat dövründə ekspertiza avadanlıqlarının hərtərəfli öyrənilməsi ilə bağlı seminarlar təşkil edilib. Seminarlarda ekspertiza işinin keyfiyyətinin yüksəldilməsi, avadanlıqlardan səmərəli istifadə və ekspertlərin ixtisas sahələri üzrə xüsusi biliklərinin artırılması mövzusunda müzakirələr aparılıb, il ərzində 3 ekspert ixtisasartırma kurslarına göndərilib. 2015-ci ildə Məhkəmə Ekspertizası Mərkəzinin icraatına 144 ekspertiza işi daxil olub ki, bu da ötən illə müqayisədə 18 iş çoxdur. Daxil olan işlərdən 4-ü icra edilmədən geri qaytarılıb. İşlərdən 2-si tədqiqat obyektləri göndərilmədiyindən, 2-si isə ekspertin ümumi biliyindən kənara çıxması ilə bağlıdır. İcra olunmuş ekspertizalar üzrə, ümumilikdə, 129 rəy, 13 ekspert arayışı tərtib edilib, 287 suala tam cavab verilib, 8 sual isə öz cavabını almayıb. 8 sual geri qaytarılmış işlərlə bağlıdır. Keçirilən obyektlər üzrə 10047 obyekt tədqiq olunub.

Sonra məruzə ətrafında çıxışlarda 2015-ci ildə görülən işlər ətraflı təhlil olunub, qarşıda duran vəzifələrdən bəhs edilib.

* * *



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində keçirilən kollegiya iclasında fövqəladə hallar naziri, general-leytenant Şamı Abdullayevin nazirliyin 2015-ci ildə gördüyü işlər və qarşıda duran vəzifələrlə bağlı məruzəsi dinlənilmişdir. Məruzədə qeyd olunmuşdur ki, 2015-ci ildə nazirliyin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə müxtəlif təyinatlı avadanlıqlar, qurğular, yeməkxana ləvazimatları, geyim formaları və digər əşya əmlaklar alınmışdır.

Fövqəladə hallar zamanı struktur qurumların dayanıqlı fəaliyyətinin təmin edilməsi üçün Mülki Müdafiə Alayının əşya, ərzaq və yanacaq-sürtkü materialları ehtiyatları yaradılmışdır.

Vurğulanmışdır ki, muxtar respublikanın sel, subasma təhlükəli ərazilərində mövcud bəndlərin və eroziya təhlükəli sahələrin monitorinqi keçirilmiş, selə qarşı tikilmiş torpaq bəndlərin, selötürücü qurğuların vəziyyəti yoxlanılmış, su anbarlarında yoxlama-müşahidə işləri aparılaraq bəndlərin təhlükəsizliyinə və hidrotexniki qurğuların fəaliyyət rejiminə nəzarət edilmişdir. İçməli su mənbələrində təhlükəsizlik, sanitar-gigiyena qaydalarına əməl olunması yoxlanılmış, anbarların ətrafında dezinfeksiya işləri aparılmışdır.

Nazirliyin səlahiyyət dairəsinə uyğun olaraq istismara verilmiş 2 təhlükə potensiallı obyekt, 23 avadanlıq və qurğu dövlət reyestrində qeydiyyata alınmış, 461 ədəd təhlükə potensiallı qurğu və avadanlıq sertifikatlaşdırılmış, 23 lift və 2 avtokran qeydiyyatdan keçirilərək istismarına icazə verilmiş, 54 ədəd texnoloji nəqliyyat vasitəsinə dövlət nömrə nişanları və qeydiyyat şəhadətnamələri verilmişdir. İstehsalatda bədbəxt hadisələrin baş verməməsi üçün 68 təhlükə potensiallı obyektdə əməli yoxlamalar aparılmış, 16 müəssisədə maşın və mexanizmlər, avadanlıq və qurğular texniki təhlükəsizlik üzrə ekspertizadan keçirilmiş, 8 təşkilata hüquq müəyyənedici sənəd verilmişdir.

"Muxtar respublika ərazisində tikintisi başa çatdırılmış və davam etməkdə olan bina və qurğuların qeydiyyata alınması diqqətdə saxlanılmış, mühəndis-geoloji işlərin həyata keçirilməsi ilə bağlı 37 obyekt ərazisindən götürülmüş qrunt nümunələrinin analizi aparılmış, 4 obyektin işçi layihəsinə rəy verilmişdir", – deyən Şamı Abdullayev bildirmişdir ki, mühəndis-geoloji, sement və beton laboratoriyasında 286 sayda tikinti materiallarının sınağı keçirilmiş, həmçinin səyyar üsulla dəmir-beton konstruksiyalarda betonun naturada möhkəmlik göstəricisi 136 halda yoxlanmışdır.

Məruzə ətrafında çıxışlar olmuş, nazirliyin 2016-cı il üçün iş planı təsdiq edilmişdir.

*Dünən Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ötən il görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir.*

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğu 2015-ci ildə digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin edilməsində fəallıq göstərmişlər.

Qeyd olunmuşdur ki, 2015-ci ildə peşə fəaliyyəti ilə əlaqədar jurnalistlərin təqib edilməsi və onlara təzyiqlər göstərilməsi ilə bağlı muxtar respublika ərazisində cinayət hadisəsi qeydə alınmamışdır.

Həyata keçirilmiş zəruri profilaktik tədbirlər nəticəsində hesabat dövründə yetkinlik yaşına çatmayanlar və narkomanlar tərəfindən cinayət hadisəsi törədilməmişdir. Lakin əvvəllər məhkum olunmuşlar və sərxoşlar tərəfindən cinayət hadisələri törədilməsi halları qeydə alınmışdır. Bu kateqoriyadan olan şəxslər tərəfindən cinayət hadisələri törədilməsinin qarşısının alınması üçün bütün qabaqlayıcı profilaktik tədbirlərdən səmərəli istifadə edilməsi zəruridir.

Muxtar respublikanın prokurorluq orqanlarında hesabat dövründə prokurorlar tərəfindən qəbul edilmiş vətəndaşlar dinlənilərək



onlara müraciətlərlə bağlı müvafiq izahlar verilməklə qanuni tədbirlər görülmüşdür.

Hüquqi maarifləndirmə və profilaktika işi muxtar respublikanın prokurorluq orqanlarında hesabat dövründə daha da gücləndirilmişdir. Bu məqsədlə prokurorluq üzrə hər rüb üçün hazırlanmış tədbirlər planına uyğun olaraq rayon (şəhər) prokurorları, polis şöbələri, kənd icra nümayəndələri və bələdiyyələrlə birlikdə ayrı-ayrı kəndlərdə, əmək kollektivlərində, təhsil müəssisələrində əhali ilə görüşlər keçirilmiş, hüquqi mövzularda mühazirələr oxunmuş, onları maraqlandıran suallara ətraflı cavablar verilmişdir.

Vurğulanmışdır ki, prokurorluq əməkdaşları 2016-cı ildə də üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaq, bundan sonra da cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

*Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatında 2015-ci ilin yekunlarına həsr olunmuş yığıncaq keçirilmişdir.*

Yığıncağı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova Naxçıvan Muxtar Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, həmçinin bu hüquqların davamlı inkişafına yönəlmiş tədbirlərin 2015-ci ildə də həyata keçirildiyini diqqətə çatdırmışdır.

Bildirilmişdir ki, 2015-ci ildə də Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili fəaliyyətini, əsasən, insan hüquqlarının müdafiəsi və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması və müvafiq tədbirlərin görülməsi, elmi-analitik fəaliyyətin, əhalinin müxtəlif sosial qruplarına ünvanlanan və insan hüquqlarının müxtəlif istiqamətlərini əks etdirən hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi istiqamətində davam etdirmişdir.

Bəhs olunan dövrdə insan hüquqlarının müdafiəsi və pozulmuş hüquqların bərpası daim diqqət mərkəzində saxlanılmışdır. Müvəkkilə ünvanlanmış hər bir müraciət araşdırılmış, aid qurumlara sorğular ünvanlanmış, bununla yanaşı, şifahi qəbul zamanı ərizəçilərə hüquqi məsləhətlər verilmişdir.

Müvəkkil Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 28 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 111 başçəkmə həyata keçirmiş, Preventiv mexanizmin fəaliyyəti ilə bağlı maarifləndirmə tədbirlərində 1578 nəfər iştirak etmişdir.

Müvəkkilin rəsmi internet sə-



hifəsində informasiyaların mütəmadi olaraq yenilənməsini, qanunvericilik bazasının zənginləşdirilməsini, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən Müvəkkilin və təsisatın fəaliyyətinin işıqlandırılmasını, həmçinin elektron müraciət səhifəsinin fəaliyyətinin daim diqqət mərkəzində saxlanılmasını vurğulayan Ombudsman qeyd etmişdir ki, 2015-ci ilin ötən dövrü ərzində Müvəkkilin rəsmi internet səhifəsinin elektron kitabxana bazası qanunvericilik aktları ilə, o cümlədən Müvəkkil təsisatında hazırlanmış hüquqi maarifləndirici vasitələrlə mütəmadi olaraq zənginləşdirilmişdir.

Ülkər Bayramova qarşıda duran vəzifələrdən danışaraq qeyd etmişdir ki, 2016-cı ildə də insan hüquqlarının müdafiəsinin daha səmərəli həyata keçirilməsi məqsədilə dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatları, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq nəticəsində əldə edilən müsbət təcrübə daha da inkişaf etdirilməli və mütəmadi təkmilləşdirilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

**Xəbərlər şöbəsi**

# 2015-ci ilə uğurla yekun vurulur



Dekabrın 29-da Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyində kollegiya iclası keçirilmişdir. İclasda çıxış edən nazir Famil Seyidov başa çatmaqda olan ilin muxtar respublika iqtisadiyyatı üçün uğurlu olduğunu, sosial-iqtisadi həyatda mühüm irəliləyişlər əldə edildiyini bildirmişdir.

Qeyd olunmuşdur ki, 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsulun həcmi 2014-cü ilin müvafiq dövrünə nisbətən 1,7 faiz artaraq 2 milyard 465 milyon manatdan çox olmuşdur. Bu dövrdə muxtar respublikada 917 milyon manata yaxın sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrünə nisbətən 2 faiz çoxdur.

Muxtar respublikamızda reallaşdırılan məqsədli dövlət proqramlarının uğurlu icrası nəticəsində yüksək texnologiyalar əsasında mebel, maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, yüngül, yeyinti sənayesi və kənd təsərrüfatı təyinatlı 852 istehsal və xidmət sahəsi yaradılmışdır. Cari ildə Sahibkarlığa Kömək Fondu tərəfindən 25 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 10 milyon 733 min 200 manat həcmində güzəştli kreditlər verilmiş, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizə çatmışdır. Muxtar respublikada fəaliyyəti bərpa edilmiş və ya yeni qurulmuş müəssisələrdə istehsal olunan məhsulların növü 361-ə çatmış, 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilmişdir.

Vurğulanmışdır ki, 2015-ci ildə kənd təsərrüfatının ümumi məhsulu 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz artaraq 403 milyon manata çatmışdır. Əhalinin ərzaq məhsullarına olan tələbatının il boyu ödənilməsinin təmin edilməsi məqsədilə soyuducu anbarların ümumi tutumu 12 min 730 tona, tərəvəz məhsullarının yetişdirilməsi üçün istixana komplekslərinin ümumi sahəsi 113 min 892 kvadratmetrə, uzunmüddətli taxıl anbarlarının tutumu 27 min tona, qısamüddətli taxıl anbarlarının tutumu 43 min 380 tona, taxıl emalı müəssisələrinin sayı 17-yə, ətlik və yumurtalıq istiqamətində quşçuluq təsərrüfatlarının sayı 64-ə çatdırılmışdır.

Sonra məruzə ətrafında çıxışlar olmuş, buraxılmış nöqsanlar təhlil edilmişdir.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində 2015-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.***



Tədbirdə Dövlət Miqrasiya Xidməti rəisinin müavini, kiçik miqrasiya xidməti müşaviri Elnur Məmmədov məruzə edərək bildirib ki, hesabat dövründə muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız olan, qanunsuz yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 299 əcnəbi aşkarlanıb. Onlardan 69-u barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən, cərimə inzibati tənbeh növü tətbiq edilib, 210-u 48 saat müddətində ölkə hüdudlarından kənara çıxarılıb, 20-si isə inzibati qaydada ölkə hüdudlarından kənarlaşdırılıb. Bu dövr ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı xidmətə, ümumilikdə, 11 min 837 müraciət daxil olub. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin elektron ünvanına, ümumilikdə, 2836 müraciət ünvanlanıb. Daxil olmuş hər bir müraciət xidmət tərəfindən dəqiqliklə və operativliklə cavablandırılıb. Bu il əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı xidmətə, ümumilikdə, 701 müraciət edilib. Daxil olmuş müraciətlərdən 641-i icra olunub, 9-na imtina verilib, 51-i isə hazırda icra mərhələsindədir. Bu dövr ərzində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı xidmətə 7 müraciət daxil olub. Daxil olmuş müraciətlərdən 6-sı icra olunub, 1-i isə icraatdadır.

2015- ci ildə Dövlət Miqrasiya Xidməti üçün yeni binanın istifadəyə verilməsinin quruma göstərilən diqqət və qayğının təzahürü olduğunu bildirən Elnur Məmmədov xidmət əməkdaşlarının qarşıdan gələn ildə də mövcud qanunvericiliyin tələblərini rəhbər tutaraq qarşıya qoyulmuş vəzifələrin qüsursuz, vaxtında və keyfiyyətlə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarıqlarını səfərbər edəcəklərinə əminliyini ifadə edib.

Xidmətin illik fəaliyyəti ilə bağlı slaydların nümayiş etdirildiyi tədbirdə xidmətin əməkdaşlarından Əfqan Əliyevin, Rahib Kərimovun, Şahin Nəbiyevin, Aysel Əliyevanın, İlkin Rəhimovun və Samir Sadiqovun çıxışları olub.

* * *



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyində keçirilən kollegiya iclasını mədəniyyət və turizm naziri Natavan Qədimova açaraq məruzə ilə çıxış etmişdir.*

Bildirilmişdir ki, 2015-ci ildə mədəniyyət müəssisələrində mədəni-maarif işinin müxtəlif forma və metodlarından istifadə olunmaqla 500-ə yaxın tədbir keçirilmişdir.

İl ərzində xalq yaradıcılığı ilə bağlı tədbirlər davam etdirilmiş, noyabrın 4-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən xalq yaradıcılığı sərgisində 37 el sənətkarının 600-ə qədər əl işi, Naxçıvan milli mətbəxinin nümunələri nümayiş etdirilmiş, folklor kollektivlərinin çıxışları olmuşdur.

Məruzədə qeyd edilmişdir ki, 2015-ci ildə konsert-tamaşa müəssisələrinin fəaliyyəti də qənaətbəxş olmuşdur. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında İftixar Piriyevin “Qurtuluş dastanı”, görkəmli dövlət xadimi və ədib Nəriman Nərimanovun 145 illiyi ilə bağlı hazırlanmış “Nadanlıq və ya qəfil telefon zəngi” və başqa tamaşalar uğurla səhnəyə qoyulmuşdur. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında il ərzində 116 kütləvi tədbir keçirilmiş, həmin tədbirlər kitabxananın internet saytında yerləşdirilmişdir. Muzeylərdə elektron təhsilin tətbiqinin genişləndirilməsi, distant dərslərin keçilməsi istiqamətində işlər davam etdirilmişdir. Naxçıvan şəhərində Xatirə Muzeyi, C.Məmmədquluzadənin Cəlilkənddəki Xatirə Muzeyi üçün yeni inşa olunmuş binalar istifadəyə verilmiş, Məhəmməd Tağı Sidqinin ev-muzeyinin açılışı olmuşdur.

Naxçıvan şəhərinin Qaraçuq kəndində, Sədərək rayonunda uşaq musiqi məktəbləri üçün yeni binalar tikilərək istifadəyə verilmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev muxtar respublikamıza səfəri zamanı Naxçıvan Şəhər 2 saylı Uşaq Musiqi Məktəbinin açılışında iştirak etmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuş, qarşıda duran vəzifələrdən danışılmışdır.

* * *

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2015-ci ildə öz işini təsdiq edilmiş tədbirlər planına uyğun qurub, gənclər arasında bədən tərbiyəsinin kütləviliyinə nail olunması üçün məqsədyönlü tədbirlər həyata keçirib, idman və gənclər sahəsində əsaslı dönüş yaradılmasına çalışıb.*



Bu fikirləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin kollegiya iclasında nazir Azad Cabbarov səsləndirib. Nazir bildirib ki, 2015-ci ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar Naxçıvan Şahmat Mərkəzində Beynəlxalq Şahmat Festivalı, Şərur Olimpiya-İdman Kompleksində kikboksinq üzrə Azərbaycan çempionatı, İlham Əliyev adına Olimpiya-İdman Kompleksində gənclər arasında sərbəst güləş üzrə “Naxçıvan Kuboku” uğrunda beynəlxalq yarış keçirilib. İl ərzində muxtar respublikanın şəhər, rayon, qəsəbə və kənd komandaları arasında müxtəlif idman növləri üzrə birinciliklər, turnirlər, yoldaşlıq görüşləri təşkil olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilmiş müşavirədə verilmiş tapşırıqlarla əlaqədar olaraq muxtar respublikaya tanınmış məşqçilər dəvət edilib, onların yerli məşqçilərin təlimlərində iştirakları təmin olunub. Bölgələrdə də bədən tərbiyəsi və idmanın kütləviliyinin artırılması ilə bağlı tədbirlər icra edilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində “Xatun” Bədii Gimnastika İdman Klubu və “Əlincə” Stolüstü Tennis İdman Klubu fəaliyyətə başlayıb.

Vurğulanıb ki, 2015-ci il ərzində ayrı-ayrı növlər üzrə muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatlarında 11, Avropa çempionatlarında 2, beynəlxalq turnirlərdə 16, Azərbaycan birinciliklərində 36, birinci Avropa Oyunlarında isə 2 medal olmaqla, cəmi 67 medal qazanıblar.

2016-cı ildə qarşıda duran vəzifələrdən də geniş bəhs olunduğu kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev, Sədərək və Şahbuz Rayon Gənclər və İdman idarələrinin rəisləri Etibar Əliyev və Vüqar Muradovun çıxışları olub.

* * *

Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində 2015-ci ildə görülən işlərə və 2016-cı ildə qarşıya qoyulan vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.

Yığıncağı müəssisənin direktoru Behruz Əzimov açaraq məruzə ilə çıxış edib.

Qeyd olunub ki, 2015-ci ildə muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə müəssisə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin müəssisələri ilə bağlanmış müqaviləyə əsasən, 31 min 541,6 ton A-92 benzini, 570,8 ton A-95 benzini, 56 min 113,9 ton dizel yanacağı, 11 min 657,8 ton bitum, 178,3 ton müxtəlif növ yağlar, 647,2 ton maye qaz alıb.

Bildirilib ki, bu il müəssisə tərəfindən ümumi dövriyyəsi 66153,8 min manat olan 100733,8 ton müxtəlif növ neft məhsulları satılıb ki, bu, 32 min 136,1 ton avtobenzin, 56 min 218,5 ton dizel yanacağı, 11 min 557,8 ton bitum, 683 ton maye qaz, 178,4 ton müxtəlif növ yağlardan ibarət olub. 2015-ci ildə müəssisə satışdan 483,7 min manat mənfəət əldə edib.

Vurğulanıb ki, boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olmasına daim nəzarət edilir və bu istiqamətdə lazımi tədbirlər görülür. Görülən işlər nəticəsində yanacaq ehtiyatı yaranıb. 29 dekabr 2015-ci il tarixə müəssisənin anbarlarında 1799,5 ton A-92 benzini, 1934,3 ton dizel yanacağı, 3520 ton mazut, 18,1 ton maye qaz ehtiyatı vardır.

Müəssisənin rəhbəri 2016-cı ildə qarşıda duran vəzifələrdən, bu vəzifələrin yerinə yetirilməsinin vacibliyindən də danışıb.

Məruzə ətrafında müzakirələrdə müəssisənin qaz məhsulları üzrə anbar müdiri Kazım Rzayev, neft məhsulları üzrə anbar müdiri Mirmehdi Seyidov çıxış ediblər.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda keçirilən kollegiya iclasında fondun sədri Rasim Hüseynov məruzə ilə çıxış etmişdir.***

Qeyd edilmişdir ki, 2015-ci ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun hesabına 61 milyon 298 min manat vəsait daxil olmuşdur. Bu da nəzərdə tutulan məbləğdən 8 milyon 633 min manat, yaxud 16 faiz çox, ötən ilin müvafiq dövründə yığılan vəsaitdən isə 2 milyon 234 min manat, yaxud 3,8 faiz çoxdur.

Hesabat dövründə məcburi dövlət sosial sığorta haqlarının onlayn ödənilməsi prosesi davam etdirilmişdir. 2014-cü ilin noyabr ayından etibarən kənd yerlərində fəaliyyət göstərən fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan və torpaq mülkiyyətçisi olan sığortaedənlərin məcburi dövlət sosial sığorta haqlarının kəndlərdə poçt şöbələri vasitəsilə ödənilməsi də təşkil edilmişdir. 2015-ci ilin hər ayı üzrə 3913 nəfər sığortaedən tərəfindən 46 min 678 manat məbləğində məcburi dövlət sosial sığortahaqqı poçt şöbələri vasitəsilə ödənilmişdir.

Qeyd edilmişdir ki, cari ilin ötən dövrü ərzində pensiya və müavinətlərin maliyyələşdirilməsinə 114 milyon 466 min manat vəsait yönəldilmişdir. Cari ildə əmək pensiyaları və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 53,6 faizi sığortaedənlərdən məcburi dövlət sosial sığortahaqqı şəklində yığılmışdır. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur.



Hazırda muxtar respublika üzrə ödəniş aparılan 51860 nəfər pensiyaçının plastik kartlarla təmin edildiyini diqqətə çatdıran Rasim Hüseynov bildirmişdir ki, hesabat dövründə daha 6328 sığortaolunan sosial sığorta şəhadətnaməsi ilə təmin edilmişdir. Beləliklə, fərdi uçot sistemində qeydə alınaraq sosial sığorta şəhadətnaməsi alan sığortaolunanların sayı ilin əvvəli ilə müqayisədə 4,3 faiz artaraq 159 min nəfərə çatmışdır.

Vurğulanmışdır ki, “Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Elektron Hökumət Portalına və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun internet səhifəsinə inteqrə edilmiş 20 elektron xidmətdən 15-i istifadəyə verilmişdir.

Avtomatlaşdırılmış pensiya təyinatı sisteminə keçidlə bağlı xüsusi proqram təminatı vasitəsilə 2006-2014-cü illər üzrə sığortaolunanlar haqqında məlumatlar, həmçinin sığortaolunanların 2006-cı il 1 yanvar tarixinədək bütün əmək fəaliyyəti dövrləri onlar üçün fondda açılmış fərdi şəxsi hesablara işlənilmiş və 2014-cü il noyabr ayından etibarən avtomatlaşdırılmış qaydada əmək pensiyalarının təyinatına başlanılmışdır. 2015-ci il ərzində 127 nəfərə bu sistem vasitəsilə yaşa görə əmək pensiyası təyin edilmişdir.

Sonda çıxışlar olmuşdur.

**Xəbərlər şöbəsi**

*30 dekabr Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaranması günüdür*

## Muxtar respublikada fövqəladə hallara hazırlıq diqqət mərkəzindədir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi yaradılmışdır.*

Nazirlik ötən dövrdə inkişaf edərək maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilmiş, qarşıya qoyulmuş vəzifələri peşəkarlıqla yerinə yetirən şəxsi heyət formalaşmışdır. Bu gün muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin, su hövzələrində və tikintidə insanların təhlükəsizliyinin, eləcə də sənayedə və dağmədən işlərində texniki təhlükəsizliyin təmin olunması sahələrində məqsədyönlü tədbirlər həyata keçirilir. Nazirliyin əməkdaşları fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında fədakarlıq nümayiş etdirirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir".***

Ötən dövrdə nazirliyin müvafiq struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. Belə ki, 2007-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası və texniki qarajları yenidən qurularaq istifadəyə verilmiş, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad Rayon şöbələrinin, 2013-cü ildə Şərur və Babək Rayon şöbələrinin, 2014-cü ildə isə Sədərək Rayon Şöbəsinin inzibati binaları və texniki qarajları tikilərək istifadəyə verilmişdir. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə nazirliyin inzibati binasının açılışı olmuşdur.

Ötən dövrdə mülki müdafiə alayının maddi-tədris bazasının təkmilləşdirilməsi də diqqət mərkəzində saxlanılmış, bu məqsədlə təlim mərkəzi istifadəyə verilmişdir. Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılmış, Naxçıvan şəhərində zabit-gizir ailələri üçün 48 mənzilli yaşayış binası tikilmişdir. Həmçinin bu günə kimi Mülki Müdafiə Alayına 36 müxtəlif təyinatlı, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarına 25 müasirtipli yanğınsöndürmə avtomobili və 14 müxtəlif təyinatlı nəqliyyat vasitəsi verilmişdir. 2010-cu ildə isə vertolyot gətirilmiş, Mülki Müdafiə Alayında və Batabat qoruğu ərazisində uçuş-enmə meydançaları hazırlanmışdır.

Nazirliyin mərkəzi aparatı və struktur qurumlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi və peşəkarlığının artırılması istiqamətində də mühüm tədbirlər görülmüşdür. Bu dövrdə 325 əməkdaş xidmətə qəbul edilmiş, 112 nəfər Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, Bakı Yanğın-Texniki Kollecinə, Ukrayna Respublikasının Xarkov şəhərindəki və Belarus Respublikasının Minsk şəhərindəki akademiyalara təhsil almağa göndərilmişdir. Onlardan 93-ü təhsillərini başa vuraraq ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunmuşdur. Hazırda Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasında 10 mülki vətəndaş və Rusiya Federasiyasının Fövqəladə Hallar Nazirliyinin Mülki Mühafizə Akademiyasında 1 zabit təhsilini davam etdirir. Keçirilən təlim və məşğələlər də peşə vərdişlərinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Ötən dövrdə şəxsi heyətin iştirakı ilə komanda-qərargah, taktiki-xüsusi təlimlər, yanğın təhlükəsizliyi şöbələrinin hər birində xidmətin təşkili üzrə gecə və gündüz məşğələləri keçirilmişdir.

Bu gün Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən tikinti materiallarının dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması və həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bundan başqa, əhalinin ehtimal olunan radioaktiv, kimyəvi zəhərlənmələrdən mühafizəsinin təşkilində operativliyi təmin etmək məqsədilə müvafiq tədbirlər görülmüş, bu sahədə maddi-texniki baza gücləndirilmişdir. Həmçinin muxtar respublikada taxılın saxlanma şəraiti, yanğın və texniki təhlükəsizlik məsələləri mütəmadi olaraq yoxlanılır. Ötən dövrdə əhalinin və işçilərin fövqəladə hallara hazırlığının təmin edilməsi məqsədilə mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarə orqanlarında və təsərrüfat obyektlərində mülki müdafiə təlimləri, təhsil, səhiyyə, mədəniyyət ocaqlarında 13 min 802 nəfərin iştirakı ilə 212 müxtəlif səpkili konfrans və digər maarifləndirici tədbir keçirilmiş, kütləvi informasiya vasitələrində məlumatlar təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti bundan sonra da fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində quracaq, əhalinin və ərazilərin təhlükəsizliyi naminə təxirəsalınmaz tədbirləri layiqincə yerinə yetirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Peşə təhsili ixtisaslı kadr hazırlığında vacib amildir

Bu gün muxtar respublikanın sosial-iqtisadi inkişafı, yeni sənaye və xidmət sahələrinin yaradılması, müasir informasiya texnologiyalarının tətbiqi peşə təhsilinin inkişafını və ixtisaslı kadr hazırlığını zəruri etmişdir. Ona görə də muxtar respublikada digər təhsil sahələri ilə yanaşı, peşə təhsilinin inkişafı istiqamətində də ardıcıl tədbirlər görülür, yeni peşə təhsili müəssisələri yaradılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Muxtar respublikanın sosial-iqtisadi inkişafı və bunun nəticəsi olaraq açılan yeni iş yerləri ixtisaslı kadrlara olan tələbatı artırmışdır. Bu səbəbdən son illər peşə təhsilinin məzmunu tamamilə yeniləşmiş, peşə tədrisi müəssisələrinin maddi-texniki bazası gücləndirilmişdir. İqtisadiyyatın çoxşaxəli inkişafı, yeni peşə və sənət sahələrinin yaranması özü ilə bərabər ixtisaslı kadrlara olan tələbatı da artırır. Artıq müasir dövrdə peşə təhsili günün tələbinə çevrilmişdir".***

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində 4 peşə məktəbi və 1 peşə liseyi fəaliyyət göstərir. 2009-cu ildə Naxçıvan Şəhər Peşə Liseyi, 2010-cu ildə Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi fəaliyyətə başlamışdır. 2014-cü ildə isə Şərur Texniki-Peşə və Sürücülük Məktəbi yaradılmış və müasir tələblərə cavab verən yeni bina ilə təmin edilmişdir. Hazırda Ordubad Peşə Məktəbinin binasında yenidənqurma işləri davam etdirilir.

Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi



Muxtar respublikanın peşə təhsili müəssisələrində müdavimlərin peşə hazırlığını təmin etmək üçün lazımi şərait yaradılmış, ümumilikdə, 18 elektron lövhəli sinif, metodiki kabinələr, emalatxanalar istifadəyə verilmiş, 34 kompüter dəsti quraşdırılmış və internet şəbəkəsinə qoşulmuşdur. Müdavimlərin yataqxana və yeməklə təmin olunması da bu sahəyə dövlət səviyyəsində ayrılan xüsusi diqqətdən xəbər verir. Peşə təhsili müəssisələri isə yaradılan bu şəraitdən istifadə edərək qarşıya qoyulmuş vəzifələrin icrasını diqqətdə saxlayır. 2015-ci ildə tədrisin müasir tələblər səviyyəsində təşkili məqsədilə ardıcıl tədbirlər görülmüşdür. Ötən dövrdə bu sahədə fəaliyyət göstərən müəllimlərin, mühəndis-pedaqoji işçilərin və istehsalat təlimi ustalarının iştirakı ilə seminar-treninqlər keçirilmiş, yeni açılan ixtisaslar dərslik və bədii ədəbiyyatlarla təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamının icrasını təmin etmək məqsədilə ilk peşə-ixtisas təhsili müəssisələrinin muzeylərlə əlaqəli işi təmin edilmiş, peşə təhsili müəssisələri ümumtəhsil məktəbləri ilə birlikdə distant tədris prosesində iştirak etmişdir.

Bu gün muxtar respublikada gənclərin marağına və əmək bazarının tələbinə uyğun peşə təhsilinə yönəldilməsi əsas məsələdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası bu istiqamətdə fəaliyyəti daha da genişləndirmişdir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin təşkilatçılığı ilə ümumtəhsil məktəblərində IX-XI sinif şagirdlərinin iştirakı ilə peşə seçiminə köməklik məqsədilə məşğələlər keçirilmiş, şagirdlərə əmək bazarının tələbinə uyğun ixtisaslar barədə ətraflı məlumatlar verilmişdir.

İstehsalat təcrübələrinin keçirilməsi peşə təhsilində mühüm amildir. Məhz bu yolla müdavimlərin nəzəri bilikləri praktiki bacarıqları ilə əlaqəli şəkildə inkişaf etdirilir. Bu sahədə işin səmərəli təşkili məqsədilə hər bir ixtisasa uyğun istehsalat sahəsi ilə təhsil müəssisələri arasında müqavilələr bağlanmış, müdavimlər istehsalat təlimi ustalarının nəzarəti altında ixtisaslarına uyğun təcrübə keçmişlər. Belə ki, arıçı peşə ixtisasının müdavimləri Dövlət Baytarlıq Xidmətində, bərbər ixtisasında oxuyanlar gözəllik salonlarında, kəndin elektrikləşdirilməsi və rabitəsi ixtisası üzrə təhsil alanlar elektrik və rabitə şöbələrində, qaz qaynaqçısı ixtisasının müdavimləri qaz idarələrində, traktorçu-maşinist ixtisasının müdavimləri isə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində istehsalat təcrübələrində olmuşdur.

Təhsil müəssisələrində tələbata uyğun yeni ixtisasların açılması da bu gün həyata keçirilən tədbirlər sırasındadır. Bunu nəzərə alaraq Naxçıvan Şəhər Peşə Liseyində ötən tədris ilindən 5 yeni ixtisas açılmış, bərbər-manikürçü, elektrik qaz qaynaqçısı, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, arıçı və traktorçu-maşinist ixtisasları üzrə kadr hazırlığına başlanılmışdır. Liseyin fəaliyyəti dövründə 218 məzunu olmuşdur ki, onlardan 48-i ötən tədris ilinin məzunlarıdır. Hazırda liseydə müxtəlif peşə ixtisasları üzrə 50 müdavim təhsilini davam etdirir.

2014-cü ildən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmiş Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbində tədris müasir tələblərə uyğun qurulmuşdur. Məktəbdə yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrinin idarəetmə məsələləri üzrə təcrübi təlimlər keçirilir. 2015-ci ildə məktəbi bütün sürücülük kateqoriyaları üzrə 269-u qadın olmaqla, 2353 müdavim bitirmişdir. Təlim kursunu başa vuran müdavimlər imtahandan keçmiş, onlara bilik, bacarıq və vərdişlərinin, eləcə də sürücülük hazırlıqlarının səviyyəsi yoxlanılaraq şəhadətnamə verilmişdir. Hazırda 295 müdavim sürücülük peşəsi ixtisası üzrə təhsilini davam etdirir. Məktəbdə kənd təsərrüfatı sahəsi üzrə tələbat da nəzərə alınaraq traktorçu-maşinist peşəsi üzrə müdavim qəbulu aparılmışdır. Ötən dövrdə 58 müdavim həmin ixtisası bitirmişdir.

Muxtar respublikanın ixtisaslı kadrlarla təminatında mühüm rol oynayan təhsil müəssisələrindən biri də Şərur Texniki-Peşə və Sürücülük Məktəbidir. Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə məktəbin yeni binasının açılışı olmuşdur. Binada ən müasir təlim-tədris avadanlıqları quraşdırılmış, müxtəlif sahələr üzrə ixtisaslı kadrların hazırlanması üçün hərtərəfli şərait yaradılmışdır. Hazırda Şərur Texniki-Peşə və Sürücülük Məktəbində tələbat nəzərə alınaraq 11 ixtisas üzrə – qadın bərbəri, bərbər, qaz təsərrüfatı avadanlıqlarının təmiri üzrə çilingər, kompüter istifadəçisi, traktorçu-maşinist, xalçaçı, kəndin elektrikləşdirilməsi və rabitəsi üzrə elektrik montyoru, qazanxana maşinisti, aşpaz köməkçisi, ofisiant və sürücülük peşələrinin tədrisi aparılır. Hazırda məktəbdə 9 ixtisas üzrə 175 müdavim, o cümlədən sürücülük ixtisası üzrə 59 nəfər kurslarda iştirak edir. Məktəbin 2014-2015-ci tədris ilində 568, 2015-2016-cı tədris ilinin 4 ayında isə 129 nəfər olmaqla, ümumilikdə, 697 məzunu olmuşdur.

Ordubad Peşə Məktəbində elektrik qaz qaynaqçısı, əməliyyatçı-mühasib, kommersiya agenti, modelyer-dizayner və qənnadçı-şirniyyatçı peşə ixtisaslarında 96 müdavim təhsil alır. Ötən tədris ilində məktəbin 116 məzunu olmuşdur. Məktəbdə sürücülük peşəsi üzrə müdavim hazırlığının aparılması da nəzərdə tutulmuşdur. Culfa Peşə Məktəbinin isə bu dövrdə əməliyyatçı-mühasib, traktorçu-maşinist, elektrik qaz qaynaqçısı, tikiş avadanlıqları operatoru, tikişçi və qadın bərbəri ixtisasları üzrə 75 məzunu olmuşdur. Hazırda məktəbdə həmin ixtisaslar üzrə 91 müdavim təhsilini davam etdirir.

Ümumiyyətlə, 2015-ci ildə muxtar respublikanın ilk peşə-ixtisas təhsili müəssisələrini 3075 məzun bitirmiş, müdavimlərin ixtisaslarına uyğun əmək fəaliyyətinə başlaması diqqətdə saxlanılmışdır. Hazırda isə peşə məktəblərində 707 müdavim təhsil alır.

Təhsil Nazirliyi bundan sonra da peşə təhsili müəssisələrində ixtisaslı kadrların hazırlanması işini diqqət mərkəzində saxlayacaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 967